## Görkəmli şəxsiyyətlər Gülhüseyn Hüseynoğlu haqqında

Çağdaş Azərbaycan nəsrində Gülhüseyn Hüseynoğlu öz səsi, öz nəfəsi, öz təkraredilməz üslubu olan görkəmli sənətkarlarımızdandır. Belə sənətkarlara deyirlər ki, qələmə zor gəlməyən, yalnız yazmamaq mümkün olmayanda qələmə sarılan, onun istəyinə əməl edən söz sahibləridir. Gülhüseyn müəllim də könlünün istəyi ilə yazan, iti yazıçı müşahidəsinin təsiri ilə ürəyinə qalaqlanmış sözləri artıq saxlamağa gücü çatmayan zamanlarda onlara azadlıq verən bir sənətkardır.

**Teymur Kərimli,**
**Akademik**

Gülhüseyn Hüseynoğlunun universitetin dəhlizindəki son dərəcə nəcib obrazı auditoriyanın içində parlayan şimşəyə dönmüş, müəllim tələbələrinin içində nəfəs almış, şeir söyləmiş, bütün hissini-həyəcanını auditoriya ilə bölüşmüşdür. Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatında əvəzsiz yeri olan bir sənətkardır.

**Kamal Abdullayev,**
**Akademik**

Gülhüseyn Hüseynoğlu həyatını, o cümlədən də yaradıcılıq həyatını olduqca mənalı yaşamış insanlardandır – o nə iş görmüşdürsə, özündən çox millətini, xalqını, vətənini düşünüb görmüşdür. Ona görə də G.Hüseynoğlunun, sadəcə, adını çəkmək kifayətdir ki, eşidənlərin üzünə xoş bir təbəssüm yayılsın, ürəkləri açılsın, ruhları təzələnsin...

**Nizami Cəfərov,**
**Akademik**

Gülhüseyn Hüseynoğlunun əsərlərində irəliyə sürdüyü, təbliğ etdiyi fikirlərlə özünün şəxsiyyəti arasında tam bir uyğunluq vardır. İnsana hörmət, bütövlük, nəciblik və paklıq onun şəxsiyyətinin ən səciyyəvi xüsusiyyətləridir. Onun bir yazıçı kimi təbliğ etdiyi fikirlərinin oxucuların qəlbinə dərhal yol tapmasında, bizcə, bunun da böyük rolu vardır.

**Aslan Aslanov,**
**Akademik**

Müasirlərimizin psixologiyası ilə bağlı aktual məsələlələrin həlli də onun mənsur şeirlərində zəngin həyat matereialına əsaslanır». G.Hüseynoğlunun mükəmməl poetik formasını tapmamış əsəri ola bilər, ancaq onun həyatdan gəlməyən, bütün məzmun-mündəricəsi ilə həyata əsaslanmayan əsərini təsəvvür etmək mümkün deyil. Ən mücərrəd, ən emosional düşüncələrində də G.Hüseynoğlu realsitdir, bu dünyanın adamıdır...

**Məmməd Arif,**
**Akademik**

Onun mənsur şeirləri içində şah əsəri olan və bir çox dillərə tərcümə olunmuş, haqqında film də çəkilmiş "Mücrü"sü hər zaman açılacaq və insanlar ona baxdıqca, istiqlalımız, müstəqilliyimizlə bağlı mənəvi mənzərələr gördükcə, bu yolda həyatını fəda etmiş insan, onun əsərləri və pak varlığı haqqında düşünəcəklər...

***

Bir millətin, ölkənin var olduğu müddətdə qazana biləcəyi ən böyük sərvət onun istiqlalı, dövlət müstəqilliyidir. Kimin bu istiqlalda və müstəqillikdə payı varsa, millətin yaddaşında həmişəlik qalır və daim minnətdarlıq duyğuları ilə xatırlanır. Ədəbi irsi ilə yanaşı, Gülhüseyn Hüseynoğlunun Azərbaycan istiqlalındakı zəhmətləri, taleyi bahasına bu istiqlalın gəlişi yolundakı çəkdiyi əməklər heç zaman unudulmamalı, həmişə bizi ona minnətdar etməlidir.

**Rafael Hüseynov,**
**Akademik**

Gülhüseyn heç kimə bənzəməyən, özünün dəsti - xətti, üslubu olan, həmişə axtaran, poetik kəşflər edən, özünə tələbkar, əsərləri üzərində zərgər dəqiqliyi ilə işləyən, oxucusuna və ümumən ədəbiyyata hörmət bəsləyən, az yazmağı, mənalı yazmağı sevən yazıçıdır.

***

Gülhüseyn Hüseynoğlu bədii ədəbiyyatı ictimai tərbiyənin, əxlaqın mühüm, kəsərli silahı kimi düşünür, buna görə də o yalnız böyüklərə yox, balaca dostlara da ürək sözünü və məsləhətini deyir. Yaxşı ki deyir! Balacaları unutmağa bizim heç birimizin haqqı yoxdur.

**Mir Cəlal Paşayev,**
**Professor**

Yazıçının silahı dilidir. Onun dili nəinki mənalı, həm də gözəl olmalıdır. Gülhüseyn Hüseynoğlu nəsrinin dili həm gözəl və mənalı, həm də sadə və poetikdir. Odur ki, hadisələrin izahı inandırıcı və valehedicidir. Yazıçı seçdiyi mövzuların hamısına eyni həssaslıqla yanaşır, onları özünəməxsus ustalıqla işləyir.

Məzmunu oxucu tərəfindən asanlıqla qavranılması üçünbir – birindən fərqli,bir – birindən düşünülmüş ədəbi priyomlar işlədir.

**Mirzə İbrahimov,**
**Xalq yazıçısı**

Gülhüseyn Hüseynoğlu çox istedadlı yazıçı olmaqla bərabər, nadir mənəviyyata malik bir insan olmuşdur. O, gəncliyində Vətənin azadlığı, Azərbaycan dilinin bərqərar

olması uğrunda ciddi mübarizəyə qoşulmuş və onun “cəzasını” çəkmişdir. Gülhüseyn Hüseynoğlu müəllim adının yüksək daşıyıcısı olmuş, bu adın təmizliyini, saflığını ömrü boyu saxlamışdır.

**Anar,**
**Xalq Yazıçısı**

Gülhüseyn Hüseynoğlu - hekayələrində sakit, təmkinli yazı manerası olan, konkret detallarla danışan, ciddi, realist yazıçıdır. O, artıq təfərrüatdan, yersiz ricətlərdən qaçır, mövzunun baş ideyasını həssaslıqla qabardır. Balaca bir hekayədə iri əsərlərə bəs edə biləcək zəngin həyat materialını sığışdırır. Surətlərin mənəvi - psixoloji aləmini dərindən duyur və göstərir. Bu sözlər onun uşaq və valideynlərə həsr olunan əsərlərinə də aiddir, satirik hekayələrinə də.

**Sabir Rüstəmxanlı,**
**Xalq şairi**

Deyim ki, təzə bir sirr açmıram mən, -
Şeirdə nasirlik, - bu, fəlakətdir.
Hər sətri şeir tək ürəyə girən
Nəsrdə şairlik, bu, məharətdir.

**Hikmət Ziya,**
**ssenarist, yazıçı**

Istedadlı yazıçı, nümunəvi müəllim olan Gülhüseyn Hüseynoğlu gözəl insan, vətəndaş ömrü yaşamışdır.

**Nəriman Həsənzadə,**
**Xalq Şairi**

Gülhüseyn Hüseynoğlu böyük vətəndaş, gözəl alim, maraqlı insan, istedadlı yazıçı, təcrübəli pedaqoq idi.

Onun bütün əsərlərində bir işıq, bir ziya var. Gülhüseyn Hüseynoğlu həyatın hər üzündə, hər qatında işıq axtaran adam idi.

**Firuz Mustafa,**
**nasir, filosof**

Bu janrın ədəbiyyatımızda yaradılması, inkişafı görkəmli ədibimiz Gülhüseyn Hüseynoğlunun adı ilə bağlıdır. O çox doğru olaraq bizdə bu janrın banisi sayılır. Gülhüseynin mənsur şeir sahəsində rəqibsiz sənətkar olmasını istər respublikamızda

və istərsə də Sovet İttifaqında bir sıra yazıçılar, alimlər, ədəbiyyatşünaslar, tənqidçilər etiraf və təsdiq etmişlər.

**Əkrəm Cəfər,**
**ədəbiyyatşünas**

Mən əlbəttə, Prezidentimiz cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Cənab prezident atamın yaradıcılığını qiymətləndirdi və 2005-ci ildə ona Xalq yazıçısı adını verdi. Çünki hamı hər zaman deyirdi ki, Gülhüseyn Hüseynoğlu xalqın yazıçısı, şairidir, xalqın içindədir. Nəyə görə bu adı ona vermirlər? Belə söhbətləri atamın yanında edəndə o deyirdi ki, "get, işinlə məşğul ol". Heç vaxt şəxsi ambisiyaları olmayıb. Heç kimdən də narazılığı olmayıb, heç kimdən gileylənməyib. Həyatını kişi kimi yaşayıb. Verilən qiymətə görə minnətdarlığımı bildirirəm. Cənab İlham Əliyev atamı qəbul etdi, Xalq yazıçısı adını şəxsən özü təqdim etdi və sonra prezidentin fərdi təqaüdü kəsildi. O, ömrünün sonunadək Prezident təqaüdü ilə də yaşadı.

**Toğrul Abdullayev,**
**oğlu, həkim – stamotoloq**